AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXSİ**

LDU 1992 LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

*Lənkəran Dövlət Universitetinin Elmi Şurasının*
*"11" mart 2026-cı il tarixli iclasında*
*(protokol № 07) təsdiq edilmişdir.*

*Rektor ____________ prof. Natiq İbrahimov*

**ETİK-DAVRANIŞ VƏ İNTİZAM KOMİSSİYASININ ƏSASNAMƏSİ**

**Lənkəran – 2026**

**1. Ümumi müddəalar**

1.1. Lənkəran Dövlət Universitetinin Etik-davranış və İntizam Komissiyası (bundan sonra – Komissiya) universitetdə əmək və tədris intizamına riayət olunmasına, etik davranış qaydalarının qorunmasına nəzarət edən kollegial orqandır.

1.2. Bu Əsasnamə Komissiyanın statusunu, səlahiyyətlərini və fəaliyyət istiqamətlərini vəzifə və funkisalarını müəyyən edir. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, Elm və Təhsil Nazirliyinin normativ aktlarını, universitetin daxili intizam qaydalarını və bu əsasnaməni rəhbər tutur.

**2. Komissiyanın funksiyaları**

2.1. Universitetdə etika və intizam məsələlərinə riayət edilməsi vəziyyətinin mövcud normalara uyğun olaraq təşkil edilməsi;

2.2. Tədris və əmək intizamının pozulması hallarının araşdırılması;

2.3. Tələbə, müəllim və digər işçilər arasında yaranan etik mübahisələrin obyektiv həlli;

2.4. İntizam pozuntularının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi;

2.5. Universitetdə sağlam mənəvi-psixoloji mühitin formalaşdırılmasına töhfə vermək.

2.6. Akademik saxtakarlıq (plagiat, köçürmə və s.) hallarının araşdırılması;

2.7. Müəllim-tələbə münasibətlərində etik normaların qorunmasına nəzarət;

2.8. Universitet daxilində zorakılıq və psixoloji təzyiq hallarının qarşısının alınması.

**3. Komissiyanın tərkibi**

3.1. Komissiya rektorun əmri ilə yaradılır.

3.2. Komissiyanın tərkibinə sədr və üzvlər daxil edilir.

3.3. Komissiyanın üzvləri yüksək nüfuza malik, obyektiv və qərəzsiz şəxslərdən seçilir.

3.4. Komissiyanın səlahiyyət müddəti 5 (beş) il müəyyən edilir.

3.5. Zəruri hallarda komissiyanın tərkibi dəyişdirilə bilər.

3.6. Maraqlar toqquşması olan üzv konkret iş üzrə iştirakdan kənarlaşdırılır.

**4. Komissiyanın hüquqları**

4.1. Araşdırma aparmaq üçün tərəflərdən izahat tələb etmək;

4.2. Şahidlərin ifadələrini dinləmək;

4.3. Zəruri sənədləri tələb etmək və araşdırmaq;

4.4. Mütəxəssisləri və ekspertləri cəlb etmək;

4.5. İntizam tədbirləri ilə bağlı rəhbərliyə təkliflər vermək.

**5. Komissiyanın vəzifələri**

5.1. Daxil olmuş müraciətləri obyektiv və vaxtında araşdırmaq;

5.2. Tərəflərin hüquqlarını qorumaq və ədalətli qərar qəbul etmək;

5.3. Məxfilik prinsipinə riayət etmək;

5.4. Qərarları əsaslandırılmış şəkildə rəsmiləşdirmək;

5.5. Təkrar pozuntuların qarşısını almaq üçün tədbirlər təklif etmək və maarifləndirici seminar və təlimlər təşkil etmək;

5.6. Etik davranış kodeksinin tətbiqinə nəzarət etmək;
5.7. İllik hesabat hazırlayıb rəhbərliyə təqdim etmək.

**6. İntizam işlərinə baxılma qaydası**

6.1. Komissiyaya müraciətlər yazılı şəkildə təqdim olunur.
6.2. Müraciət daxil olduqdan sonra 5 (beş) iş günü ərzində baxılmağa qəbul edilir.
6.3. Araşdırma müddəti zərurət olduqda uzadıla bilər, lakin ümumi müddət 1 (bir) ayı keçməməlidir.
6.4. Tərəflər iclasa dəvət olunur və onların izahatları dinlənilir.
6.5. Qərar səs çoxluğu ilə qəbul edilir və protokollaşdırılır.
4.6. Video, audio və digər sübut vasitələrini araşdırılır;
4.7. Universitet daxilində monitorinqlər keçirilir;
4.8. Təkrar pozuntular üzrə sərtləşdirilmiş tədbirlər təklif etmək.
6.6. Tərəflərin hüquqları:

- izahat vermək;
- sübut təqdim etmək;
- şahid çağırmaq;
- qərardan şikayət vermək.

6.7. Qərar tərəflərə yazılı şəkildə təqdim olunur;
6.8. Şikayət verilməsi üçün 3 (üç) iş günü müddət müəyyən edilir.

**7. İntizam tədbirləri**

Komissiyanın təqdimatı əsasında aşağıdakı intizam tədbirləri tətbiq oluna bilər:
Müəllim və əməkdaşlar üçün:

- xəbərdarlıq;
- töhmət;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət;
- vəzifədən azad etmə ilə bağlı təklif.

Tələbələr üçün:

- xəbərdarlıq;
- töhmət;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət;
- universitetdən xaric etmə barədə təklif.

**8. Etik davranış prinsipləri**

8.1. Hörmət və qarşılıqlı etimad;
8.2. Qərəzsizlik və obyektivlik;
8.3. Akademik dürüstlük;
8.4. Ayrı-seçkiliyin yolverilməzliyi;
8.5. Peşəkar davranış və məsuliyyətlilik.
8.6. Məxfi məlumatların qorunması;
8.7. Sosial şəbəkələrdə etik davranışın təmin edilməsi;

8.8. Universitetin nüfuzunun qorunması.

**9. Mübahisələrin həlli mexanizmi**
9.1. Mübahisələr ilkin olaraq barışdırıcı üsullarla həll edilməyə çalışılır;
9.2. Tərəflərin razılığı ilə mediasiya tətbiq oluna bilər;
9.3. Razılıq əldə olunmazsa, komissiya yekun qərar qəbul edir.

**10. Məxfilik və etik təhlükəsizlik**
10.1. Araşdırma materialları məxfi saxlanılır;
10.2. Şəxsi məlumatların yayılması qadağandır;
10.3. Şahidlərin təhlükəsizliyi təmin edilir.

**11. Komissiyanın fəaliyyətinin təşkili**
11.1. İclaslar ayda ən azı bir dəfə keçirilir;
11.2. Təcili hallarda növbədənkənar iclas çağırıla bilər;
11.3. İclaslar protokollaşdırılır və arxivləşdirilir.

**12. Monitorinq və profilaktik tədbirlər**
12.1. Fakültələrdə etik vəziyyətin monitorinqi aparılır;
12.2. Risk qrupları müəyyən edilərək qabaqlayıcı tədbirlər görülür;
12.3. Tələbələr üçün etik davranış üzrə təlimlər keçirilir.

**13. Beynəlxalq təcrübənin tətbiqi**
13.1. Beynəlxalq universitetlərin etik standartları öyrənilir;
13.2. Müasir etik idarəetmə mexanizmləri tətbiq edilir;
13.3. Akademik dürüstlük siyasəti daim yenilənir.

**14. Yekun müddəalar**
14.1. Bu Əsasnamə rektor tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.
14.2. Əsasnaməyə dəyişikliklər universitet rəhbərliyinin qərarı ilə edilə bilər.
14.3. Əsasnamədə nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həll edilir.
14.4. Tədbirlər pozuntunun ağırlıq dərəcəsinə uyğun tətbiq edilir;
14.5. Təkrar pozuntular daha sərt qiymətləndirilir;
14.6. Yüngülləşdirici hallar (ilk dəfə pozuntu, peşmançılıq və s.) nəzərə alınır.